BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
*№3 Sosial-siyasi elmlər seriyası 2006*

# HÜQUQ

## AZƏRBAYCANIN SİYASİ VƏ HÜQUQİ TƏLİMLƏRİNİN DƏRK EDİLMƏSİNDƏ TARİXİLİK VƏ VARİSLİK PRİNSİPLƏRİ

**M.F.MƏLİKOVA**
***Bakı Dövlət Universiteti***

*Elmi məqalənin tədqiqat predmetini Azərbaycanın siyasi və hüquqi təlimlər tarixinin dərk edilməsinin metodoloji məsələləri – tarixilik və varislik prinsipləri təşkil edir. Məqalədə tarixiliyin, varisliyin, təkrarlanmanın və təkrarlanmamanın anlayışı, xüsusiyyətləri, varisliyin elmi ədəbiyyatda qəbul edilmiş «tarixilik-müasirlik» formulada əhəmiyyəti və rolu nəzərdən keçirilmişdir. Tarixilik və müasirlik arasında səbəbli əlaqəliliyin yaranmasında ifadə olunan varisliyin funksiyasından irəli gələrək bu kateqoriyanın analizi nəticəsində «tarixilik-varislik-müasirlik» kimi üçelementli nisbəti təklif edilmişdir.*

İdeyaların inkişaf tarixinin, onların çoxcəhətliliyi və müxtəlifliyi baxımından həm konkret cərəyanlar çərçivəsində, həm də ayrılıqda (məsələn, maarifçilik ideologiyası hüdudlarında, maarifçilik və inqilabi-demokratik cərəyanlarda) öyrənilməsi bütün parametrlər üzrə danılmaz əhəmiyyətə malikdir. Həmin parametrlərin ən mühümlərindən biri insanların dünyagörüşünün, bütövlükdə milli məfkurənin formalaşdırılmasından ibarətdir.

Siyasi və hüquqi təlimlər tarixinin missiyalarından biri onun müasir cəmiyyət üçün nəzəri və praktiki əhəmiyyət kəsb etməsindədir. Keçmişin mütəfəkkirlərinin yaradıcılıq irsinin dərk edilməsi ümumbəşəri dəyərlərin formalaşdırılmasının mənbələrini açıb göstərməyə imkan verir. Bu ümumbəşəri dəyərlər keçmişin mənəvi və digər nailiyyətlərinə əsaslanaraq sivilizasiyalı cəmiyyət üçün qlobal əhəmiyyət kəsb edir.

Məhz keçmişin təcrübəsindən indiki və gələcək zaman üçün bir dərs əldə edilir. Bu isə öz növbəsində ideyaların, xüsusilə də doğma vətən siyasi və hüquqi fikirləri tarixinin daha yüksək səviyyədə öyrənilməsi vəzifəsini qarşıya qoyur. Ona görə ki, dövlət-hüquqi təsisatların yaradılması, dövlətçiliyin möhkəmləndirilməsi və inkişafı, siyasi və hüquqi binanın konstruksiyası təməl olmadan, boş yerdə qeyri-mümkün-dür. Həmin konstruksiya isə özündə keçmişdə yaradılmış və sınaqdan keçirilmiş modelləri və ya həyata keçirilməsi mümkün olmasa da, müasir dövrümüzdə reallığa çevrilə biləcək arzu-modelləri özündə ehtiva edir.

Azərbaycanın siyasi-hüquqi fikir tarixinin öyrənilməsi Azərbay-

canda yeni cəmiyyətin, dövlətçiliyin yeni mərhələsinin formalaşdırılması dövründə mühüm əhəmiyyət кəsb edir. Çünкi кeçmişin təcrübəsinin, onun pozitiv və mənfi nəticələrinin nəzərə alınması, tarixin dərslərindən istifadə və onların tətbiqi əкsər hallarda tarixi proseslərin bizə ötürdüyü variantlardan ən məqbul hesab edilən, zamanın ruhuna, cəmiyyətin, xalqın tələbatına, onun milli və dövləti mənafelərinə ən müvafiq olan, optimal dövlət-hüquq quruculuğunun modellərinin proqnozlaşdırılmasında həlledici rol oynayır.

Dövlət-hüquqi quruculuqla yanaşı, ümumbəşəri prinsiplər, yüкsəк əxlaqi prinsiplər və milli ənənələr çərçivəsində yeni ideologiyanın formalaşdırılması prosesinin geniş vüsət aldığı bir zamanda milli siyasi-hüquqi fiкrin öyrənilməsi mühüm, əvəzolunmaz əhəmiyyət кəsb edir. Doğma vətən tarixinin, dahi Azərbaycan mütəfəккirlərinin yaradıcılıq irsinin öyrənilməsi cəmiyyətdə təbii-tarixi inкişaf prosesinin təzahürü кimi həyata кeçirilən, zamanla uzlaşan islahatların başa düşülməsi və qəbul edilməsi, ölкədə gedən кöкlü dəyişiкliкlərin dərкi fonunda insanların dünyagörüşü mövqelərinin formalaşması prosesini özündə ehtiva edən bir özüldür.

Yeni sosial-iqtisadi formasiyanın meydana gəlməsi mərhələsi gənc nəslin yalnız ümumbəşəri dəyərlər əsasında deyil, həm də əsrlərin dərinliкlərindən süzülüb gələn, daimi olaraq zamanın sınağından çıxmış yeni кomponentlərlə zənginləşən və nəsildən-nəslə ötürülən qabaqcıl, dayanıqlı milli ənənələrin əsasında tərbiyə edilməsi кimi mürəккəb vəzifələri irəli sürür. Bununla əlaqədar öz xalqının tarixinin, onun mənəvi mədəniyyətinin dərк edilməsi insanların mənəvi simasını zənginləşdirir, daxili mədəniyyətinin, zənginliyinin yüкsəldilməsinə xidmət edir, öz xalqının, eləcə də digər xalqların tarixi кeçmişinə və müasir tarixinə hörmət hissini təlqin edir.

Ümumi ideyalar tarixinin və xüsusi olaraq Azərbaycanın siyasi-hüquqi ideyalar tarixinin sosial və siyasi əhəmiyyətliliyi mütəfəккirlər tərəfindən təbliğ olunan təlimlərə, ideyalara, кonsepsiyalara adeкvat və obyeкtiv qiymət verilməsinin zəruriliyini irəli sürür. Bu da öz növbəsində təlimlərin mahiyyətinin, onun təlimlər sistemində yerinin, bu ideyaların gələcəк inкişaf mərhələləri üçün rolu və əhəmiyyətinin açılmasına metodoloji baxımdan düzgün yanaşmanın işlənib hazırlanmasını tələb edir.

Konкret olaraq, siyasi və hüquqi təlimlər tarixinin öyrənilməsi təlimin mahiyyətinin, məqsədyönlüyünün, cəmiyyətin inкişafındaкı rolunun və ideyaların gələcəк inкişafına təsiri dərəcəsinin aydınlaşdırılmasını tələb edir. Beləliкlə, tədqiqatın struкturu təlimlərin mənbələrinin, mahiyyəti və nəticələrinin (ideyaların inкişafındaкı rolunun) mərhələlər üzrə açılmasından ibarətdir.

Bu fundamental məsələlərin həlli tarixiliк və varisliк prinsiplərinin aid edildiyi metodoloji məsələlərin nəzəri və empiriк əhəmiyyətinin aydınlaşdırılmasını tələb edir.

Tarixiliк və varisliк problemləri obyeкtiv səbəblərdən fəlsəfə, tarix, hüquq[1] və digər elm sahələrində işlənilmə dərəcəsindən asılı olma-

[1] См.: Логика научного исследования. – М.,1965; Подкорытов Г.А. Историзм как метод научного познания. – Л.,1967; Французова Н.П. Исторический метод в научном познании. – М.,1972; Политические учения: история и современность. Домарксистская политическая мысль. – М.,1976; Политические и правовые учения: проблемы исследования и преподавания. – М.,1978; Методологические проблемы истории философской и общественной мысли. – М.,1977; Методологические проблемы советской юридической науки. – М.,1980; Керимов Д.А. Философские основания политико-правовых исследований. – М.,1986; Дашдамиров А.Ф.

yaraq, «əbədi», klassik problemlərdən sayılırlar. Onlar ideyalar sisteminin formalaşdırılmasının tarixi prosesinin dərk edilməsinin ilkin şərtləri qismində çıxış edirlər o vaxta qədər ki, hüdudsuz, «əbədi» idrak prosesi mövcuddur.

Bu problemdə onun əhəmiyyətliliyi və rolu aydınlaşdırıldıqca tədqiqat prosesində empirik əhəmiyyət kəsb edən bütün yeni qatlar, yeni potensial imkanlar açılır.

Elmi ədəbiyyatda tarixilik metodunun və tarixilik prinsipinin fərqləndirilməsi, birincinin ikincidən törəmə olduğu, tarixiliyin «nisbi sabit, bütöv sistemlər, ayrı-ayrı inkişaf mərhələləri və tarixi hadisələrin yenidən qurulması kimi inkişaf etməkdə olan obyektlərin onların mövcudluğunun konkret şəraitlərində tədqiq edilmə üsulu»[1] kimi anlamı haqqında fikir söylənilir. Bu mövqeyin müəllifi N.P.Fransuzova inkişaf prosesində diskretizmi (fasiləliyi) və fasiləsizliyi əzəli birlik kimi qəbul edərək tarixiliyin anlamında iki əsas məqamı ayırır: 1) inkişafın hər birinin özünəməxsus, fərdi xüsusiyyətlərilə nisbi sabit, tamlıq təşkil edən bir sıra mərhələlərin əvəzlənməsi kimi başa düşülməsi; 2) inkişaf etməkdə olan hadisələrin nisbi bütövlüyünün tanınması, ümumiləşdirmə, varislik elementlərinin saxlanılması. N.P.Fransuzova hesab edir ki, «tarixiliyin əsasında obyektiv gerçəklikdə hadisələrin gələcək inkişafının perspektivlərini müəyyən edən, bir mərhələdən digərinə keçidi şərtləndirən qanunauyğunluqların, səbəbiyyətin mövcudluğunun tanınması durur» [2]. Ədalətlilik naminə qeyd etmək lazımdır ki, bu mövqenin müəllifi öz kitabının sonrakı fəsillərində dəqiq və ictimai elmlərin nümunəsində tarixilik prinsipinin nəzəri və tətbiqi əhəmiyyətini kifayət qədər dərinliyi ilə açıb göstərir.

Tarixi prosesin bütövlüyü postulat qismində qəbul edilərək tarixiliyin, hadisələrin və müasirliyin tarixi əlaqəliliyi kimi nəzərdən keçirilməsi C.A.Kərimov tərəfindən təklif edilmişdir. Onun xüsusi olaraq qeyd etdiyi kimi, bu əlaqə müasir hadisələrin özlərinin sələfləri olan proseslər və hadisələrlə, habelə onların özlərinin əsasında meydana gələn proseslərlə əlaqəsində üzə çıxır. Sonuncuların olmaması isə tarixi inkişafda səbəbli-nəticəvi əlaqənin itirilməsinə və müasirliyin özünün dərk edilməsinin qeyri-mümkünlüyünə gətirib çıxara bilər. C.A.Kərimovun tarixilik üçün məntiqi metodun qiymətləndirilməsi ilə bağlı fikri də əsaslıdır. Belə ki, bu metodun mahiyyəti prosesin məntiqi gedişatının açılması şərti ilə aydınlaşdırıla bilər. Onun fikrincə, tarixiliyin və məntiqiliyin vəhdəti tarixi konkretliyin təbiətini başa düşməyə imkan verir. «Tarixilik prinsipinə əsaslanaraq məntiqi tədqiqat tarixi təkrarlanmanı, cəmiyyətin hərəkəti və inkişafının ümumi prinsiplərini açıb göstərir... Tarixi analiz isə baş verən dəyişikliklərin xüsusiyyətlərinin, spesifik cəhətlərinin üzə çıxarılmasına istiqamətlənmişdir...»[3].

Gətirilmiş fikirlərlə razılaşmamaq çətindir, lakin tarixiliyin bəzi məzmuni tərəfinin və Azərbaycan siyasi-hüquqi təlimlərinin dərk

---

Теоретико-методологические проблемы обществоведения, заметки и размышления о новых подходах.- Баку, 1996 и др., а также статьи в журн. «Вопросы философии», «Правоведение», «Советское государство и право».

[1] Французова Н.П. Исторический метод в научном познании. – М., 1972. С.42.

[2] N.P.Fransuzovanın adı çəkilən əsəri. S.42-43.

[3] Керимов Д.А. Философские основания политико-правовых исследований. – М.,1980. С.46-47.

edilməsində həmin prinsipin tətbiqinin xarakteristikasının verilməsinə ehtiyac duyulur.

Siyasi-hüquqi fikrin tədqiqində tarixilik prinsipi tarixin ilk növbədə yeganə bütöv bir proses kimi anlamını nəzərdə tutur. Bu, özünün formalaşdırılması və inkişafı qanunauyğunluqlarına malik olan vahid biliklər sistemi prosesidir, təbii-tarixi bütöv bir prosesdir. Nəzəriyyələrin, biliklərin, bütövlükdə təlimlərin sistemliliyi tarixiliyin bu atributunu təşkil edir. Bu atribut olmadan indiki vəziyyətdə fikir tarixi də mövcud olmazdı, fikirlərin bü cür çoxcəhətliliyi, müxtəlifliyi, dəyişkənliyi, əsrlər boyu onun təzahür formalarının müxtəlifliyi fövqündə ideyaların dağınıqlığı, pərakəndəliyi yaranardı. Bilavasitə müxtəlif mərhələlərin ideyalarının varisliyinə, məntiqi əlaqəsinə əsaslanan sistemlilik ideologiyanın, hətta çox zaman bir-biri ilə ziddiyyətdə olan çoxsaylı cərəyanlarına baxmayaraq, inkişaf xəttini, ümumi və xüsusini müəyyən etməyə imkan verir. Sistemlilikdən kənarda fikir tarixindən söhbət belə gedə bilməz. Ona görə ki, dövrlərin ideyalarının əlaqəsinin pozulması özlüyündə tarixin bütövlüyünün qırılmasına səbəb ola bilər.

Tarixilik prinsipinin mühüm məqamlarından biri də siyasi-hüquqi fikir tarixinin onun yüksələn hərəkəti, dinamik inkişafı nöqteyi-nəzərindən öyrənilməsidir. Tarixilik mərhələdən-mərhələyə, dövrdən-dövrə doğru bir inkişaf olduğundan, elə bu inkişafın özü də tarixidir. Başqa sözlə, tarixilik və inkişaf bir vəhdət təşkil edir. Ona görə ki, tarixin hadisələrin qanunauyğun, ardıcıl olaraq dəyişməsi, başqa hadisəyə keçməsi kimi (inkişaf)[4] bir proses olması postulatından çıxış edərək, məntiqlə belə bir nəticəyə gəlinir ki, tarixilik belə yanaşmada özü də bir inkişafdır. Əks halda nəinki zamanlar arasında əlaqə pozular, hətta fikir tarixinin hərəkəti haqqında ümumiyyətlə danışmaq gərəksiz olar, fikir tarixi qarşımızda daşa dönmüş, ehkamlaşmış rabitəsiz biliklər kimi durardı.

Hərəkətin yüksələn xarakterini, onun diskretizmini (fasiləliyini) və fasiləsizliyini xüsusi qeyd etmək lazımdır[5].

Siyasi və hüquqi fikir tarixinin dərk edilməsində tarixilik prinsipinin xarakterik cəhəti həm də, onun mərhələli inkişafından ibarətdir. Tarixi proses bir başlıca mərhələdən digərinə doğru bir inkişafdır. Bu proses zamanın tələblərinə müvafiq surətdə və buna görə də tarixi inkişafda yeni mərhələnin ayrılması üçün əsas verən, problemlərin qoyuluşu və həllində köklü dəyişikliklər edən keyfiyyətcə yeni, özünəməxsus formada təkamül və «sıçrayışlar» yolu ilə inkişafın ümumi axarında ideyaların, qaydaların ardıcıl surətdə əvəzlənməsidir. Şübhəsiz ki, fikir tarixinin belə diferensiasiyası nəinki mütəfəkkirin özünün müasiri olduğu cəmiyyət, dövlət üçün, həm də dövlət-hüquqi quruculuğun sonrakı praktikası üçün yeni yaradıcılıq nailiyyətlərinin, onların nəzəri və təcrübi əhəmiyyətliliyinin üzə çıxarılmasına, habelə tarixi-müqayisə metodunun əsasında təlimlərin xüsusiyyətlərini və aralarındakı fərqləri aydınlaşdırmağa və s. şərait yaradır.

Siyasi və hüquqi təlimlər tarixinin inkişafı mərhələlərinin müəyyən edilməsi mütəfəkkirlərin təlimlərinin mahiyyəti və məzmununun

---

[4] Философский словарь. /Под ред. И.Т.Фролова.– М., 1986. С.393

[5] Bax ətraflı: N.P. Fransuzovanın adı çəkilən əsəri. S.76-109.

aydınlaşdırılması ilə bağlıdır. Ona görə də fikir tarixinin dərk edilməsi prosesi ilkin mərhələdə o mütəfəkkirlərin təlimlərinin (və yaxud tarixi abidələrdə, məsələn «Avesta»da ifadə olunan təlimlərin) tədqiqat obyekti kimi seçimini nəzərdə tutur ki, onlar siyasi və hüquqi fikir tarixinə ölçüyəgəlməz töhfə vermişlər və irəli sürülən ideyaların əhəmiyyətliliyi baxımından ideyaların inkişafı tarixində mühüm bir dönüş nöqtəsini özündə ehtiva etmişdir. Eyni zamanda bu təlimlər zamanın sınağından keçərək sonrakı mərhələlərdə mütəfəkkirlər tərəfindən inkişaf etdirilməkdə davam edir, onların təliminin əsas nüvəsini təşkil etməklə, bu təlimin məgzinə daxil olur, onun yeni dövrün tələblərinə uyğun yeni ideyaların meydana çıxdığı özülünə çevrilir.

Bu kontekstdə həmin mütəfəkkirlər məsələn, Nizami, M.F.Axundov kimi mütəfəkkirlər, banilər, «klassiklər» koqortasına aid edilirlər. Onları qədim yunan fəlsəfi ənənələri nümunəsində (məsələn Aristotelin) tam əsasla ustad adlandırmaq olar.

Yaradıcılıq irsinin öyrənilməsi ideyaların inkişaf tarixinin qanunauyğunluqlarının aydınlaşdırılmasına imkan yaradır. Hər şeydən əvvəl, bu, ideyaların dinamikası haqqında, hər yeni mərhələnin sadədən mürəkkəbə, daha dərinliyə, hadisədən mahiyyətə doğru keçid, hərəkət haqqında şəhadət verir.

Azərbaycanın qədim tarixinin ideyalarından nümunələr gətirmək olar. Burada əsas aksent Azərbaycanın, İranın, Yaxın və Orta Şərq ölkələrinin böyük tarixi abidəsi olan Avestaya – zərdüştiliyin müqəddəs kitabları toplusuna yönəldilir. Avesta qədim cəmiyyət, onun ictimai quruluşu, həm qədim dövrlərdə (sonralar erkən feodalizm dövründə də), həm də indiki zamanda Zərdüştiliyi təbliğ edən icmalar içərisində fəaliyyətdə olan hüquqi institutlar haqqında tükənməz biliklər mənbəyidir. Avesta, məlum olduğu kimi, xeyir və şər haqqında təlimlərin təməlini qoymaqla, gələcəkdə müxtəlif interpretasiyalarda siyasi və hüquqi təlimlər tarixinin əsaslarından birini təşkil etmişdir.

Bununla bərabər, əgər belə yanaşma prizmasından baxılsa, o zaman, misal üçün XII əsrdə Azərbaycanda «Qızıl əsr»in tarixi fonunda Nizaminin nəhəng fiquru, onun nəinki Azərbaycanın, hətta Qərbin və Şərqin siyasi və hüquqi fikrinə mühüm təsir göstərən utopizmi, fəlsəfəsi, sosial-siyasi ideyaları meydana çıxır.

İdeyalar tarixi fonunda yaşadığımız dövrə bir qədər yaxın olan mərhələdə – XIX-XX əsrin əvvəllərində doğma ölkəmizin fəlsəfə, siyasi və hüquqi fikir tarixinə yeni konsepsiyaların, siyasət, dövlət və hüquq problemlərinin həllinə yeni yanaşmaların yaradıcısı kimi daxil olmuş, öz yaradıcılıqları ilə vətənlərini dünya miqyasında məşhurlaşdıran şəxsiyyətlər – A.Bakıxanov, M.Kazımbəy, M.F.Axundov, H.B.Zərdabi, N.Nərimanov və başqaları qabarıq şəkildə üzə çıxırlar. Onların hər biri siyasi və hüquqi ideyalar tarixində yeni mərhələnin, yeni ideoloji istiqamətlərin yaradıcıları idilər.

Bu və ya digər mütəfəkkirin «klassiklər» kateqoriyasına aid edilməsinin ölçüsü qismində onların təlimlərinin ümumbəşəri dəyərlərlə uzlaşması amili çıxış edir. Başqa sözlə deyilsə, təlimin əhəmiyyətliliyini müəyyən etmək üçün onlara ümumbəşəri dəyərlər çərçivəsində baxılmalı, mütəfəkkirin şəxsiyyəti isə fikir tarixində müəyyən istiqamətin təməldaşı və ya bu istiqamətin axarını dəyişən, öz dövrünün tələblərini əks etdirən yeni konsepsiyalarla onu mühüm dərəcədə

zənginləşdirən bir «klassik» kimi nəzərdən keçirməlidir. Hegelin peyğəmbərcəsinə dediyi kimi, hər bir mütəfəkkir «öz zamanının övladıdır», «fəlsəfə ona müasir olan və düşüncələrlə dərk edilən dövrdür.[6] Bu zaman yalnız universal, tamamlanmış bütöv bir nəzəriyyə yaratmaq səylərini və belə cəhdləri özündə ehtiva edən ideya – tövsiyələr inkar edilməlidir. Təlimlərin məntiqi dərketmə üsullarının tətbiqi, ümumi qanunauyğunluqlar – ideyaların tarixiliyi və varisliyi baxımından öz aralarında bir-biri ilə bağlı olan ümumi ideyalar sistemində təlimlərin yerinin üzə çıxarılması bu xüsusda aparılan tədqiqata əvəzsiz xidmət göstərəcəkdir. Məntiqi üsulların tətbiqi öyrənilən obyektin mühüm cəhətlərini təcrid etməyə, onları digər əlaqələrdən ayırmaq yolu ilə ideallaşdırmağa və beləliklə, predmetlərin həqiqi vəziyyətini müəyyən etməyə imkan verir. Özünün elmi diqqətəlayiq tədqiqatlarında S.Q.Məmmədovanın düzgün qeyd etdiyi kimi, «məntiqi idrakda zərurinin seçilməsi, onun digər çoxsaylı bağlılıqlardan ayrılması həqiqətin daha dərindən və konkret olaraq dərk edilməsinə, onun daxili məzmununun ifadə edilməsinə imkan verir. Obyektiv aləmi ani olaraq onun bütün əlaqələrində və vasitələrində əks etdirmək mümkün olmadığı baxımından obyektiv bir cəhətinin dərk edilməsi üçün bizim konkret məqsədlərimiz nöqteyi-nəzərindən maraq kəsb etməyən tərəflərindən və çoxsaylı əlaqələrindən ayırmaq, fikrən təcrid etmək vacibdir».[7] Bu sətirlərin müəllifi, elmi idrakda ideallaşdırma metodlarının rolu və əhəmiyyətini əsaslı şəkildə işləyib hazırlayaraq düzgün olaraq qeyd etmişdir ki, öyrənilən obyektin bu və ya digər cəhətlərinin ideallaşdırılması «əlahiddə olaraq götürülmüş hadisənin bir sıra kənar, əhəmiyyət kəsb etməyən hadisələrdən təmizlənməsi ilə»[8] müşayiət olunur.

Məsələnin mahiyyətinin metodoloji tərəfinə – ilk növbədə şəxsiyyətlərin – «klassiklərin» irsinin üzə çıxarılması və öyrənilməsinin zəruriliyinə gəldikdə isə qeyd etmək yerinə düşərdi ki, bu cür «maraq göstərmə», zənnimizcə, fikir tarixinin tamlığının qırılması təhlükəsi ilə üz-üzə qala bilər. Şübhəsiz ki, mütəfəkkirin təlimi unikal, özünəməxsus olaraq ideyaların ümumi sistemindən ayrılır, onun tarixi mərhələsinin ideyaları üzərində yüksəlir, mütəfəkkirin özü isə, obrazlı deyilsə, ulduzlar qalaktikasında ən parlaq ulduzu xatırladır. Lakin mütəfəkkirin-«klassik»in təliminin dərk edilməsinə bu formada diqqətin cəmləşdirilməsi ideyaların dinamikasında, ideyaların inkişafı prosesinin öyrənilməsində bir vakuum yaranmasına gətirib çıxarmağa qabildir.

Yuxarıda qeyd olunduğu kimi, siyasi-hüquqi ideyaların inkişafı hamar yolla deyil, sıçrayışvari gedən bir prosesdir. «Sıçrayışlar» haqqında isə onu demək lazımdır ki, onlar bəzi hallarda «klassik»in ideyalar sistemində öz nəzəriyyəsinin mükəmməlliyinə (əvvəlki nəzəriyyələrə münasibətdə) nail olunması üçün zəmin yaradan aralıqdakı həlqələr ilə hazırlanmışlar. Ona görə də ehtimal olunur ki, siyasi fikrin bir vəhdət kimi qavranılması üçün onun bütövlüyünü təşkil edən tərkib hissələrinə, onun ayrı-ayrı həlqələrinə etinasız yanaşmaq düzgün olmazdı. Güman etmək olar ki, bu aralıqdakı həlqələrdə fərziyyələr,

---

[6] Гегель. Соч., Т.VII. С.16.
[7] Мамедова С.Г. Роль метода идеализации в научном познании. – Баку, 1985. С.8.
[8] Yenə orada.

proqnozlar, yeni ideyaların rüşeymi, qlobal problemlərin potensial mümkün həlli toplanır. Onlar, elə bil ki, ideyaların az və ya çox dərəcədə rəvan və müntəzəm inkişafının «partlayışı» üçün, yeni fundamental kəşflər üçün zəmin hazırlayırlar.

Təsəvvür edilir ki, bilavasitə bunlar, fikir tarixində öz əhəmiyyətinə və roluna görə «klassik»lərin təlimlərindən ilk baxışda bir qədər ayaqlaşa bilməyən «klassik»lərin öz yaradıcılığında, öz axtarışlarında yüksək zirvələrə çatmasında onlara «yardım» göstərirlər.

Bu baxımdan qeyd edilməlidir ki, onlar az əhəmiyyət kəsb etmirlər və «klassik»lərin təlimləri ilə eyni dərəcədə öyrənilməyə layiqlidirlər. Siyasi və hüquqi təlimlər tarixinin xüsusi tədqiqat problemini təşkil edən predmeti haqqında məsələyə baxılması bu məqalədə bir məqsəd olaraq qarşıya qoyulmadığından, hesab edilməlidir ki, «aralıq həlqələri» adlandırdığımız həmin həlqələr «klassik»lərin yaradıcılığı kimi dərk etmənin obyektinə çevrilməlidirlər.

Tarixiliyin inkişafının tam bir prosesi kimi, zamanların ideyalarının qanunauyğun əlaqəsinin üzə çıxarılması, konsepsiyalar, təlimlər sistemi kimi başa düşülməsi «tarixilik-müasirlik» problemi ilə üzvü surətdə bağlıdır. Çünki ilk növbədə bu əlaqə vasitəsilə proses formalaşır, elementləri bir-birilə sıx münasibətlərdə və əlaqələrdə olaraq bütövlük, vəhdət yaradan sistem meydana gəlir.

Yuxarıda siyasi-hüquqi fikirlərin sadədən mürəkkəbə, hadisədən mahiyyətə doğru yüksələn xətt üzrə hərəkəti haqqında danışılmışdır ki, onun da yerinə yetirilməli olan funksiyalarından biri də tərəqqiyə doğru meyllə yanaşı, sistemliliyin, əlaqəliliyin təmin edilməsi hesab olunur. Yüksələn hərəkət bir mərhələdən digərinə keçidə, onların arasında, tarixi keçmiş ilə müasirlik arasındakı əlaqələrə şərait yaradır.

Qədim zamanlardan bizim dövrümüzə qədər siyasi-hüquqi ideologiyanı əlaqələndirən yüksələn hərəkət ideyaların varisliyini təmin edir. Qeyd olunduğu kimi, siyasi-hüquqi fikrin öyrənilməsi vəzifəsi yalnız təlimlərin səbəblərinin və məzmununun açılmasından deyil, həm də fikir tarixinin sonrakı inkişafı üçün onun əhəmiyyətinin aydınlaşdırılmasından ibarətdir. Bu prosesdə varislik əlaqənin üsullarından, hərəkətin ifadə formalarından biri, təlimlər arasında zəruri obyektiv əlaqələrin müəyyən edilməsi, mütərəqqi, sabit, tarixin sınağından keçmiş ideyaların, təlimlərin, eləcə də onların konkret təlimlərdəki xüsusiliyin çərçivəsindən kənara çıxan və müvafiq ideoloji istiqamət üçün ümumiliyi kəsb edən ayrı-ayrı müddəalarının saxlanması qismində çıxış edir.

Tarixi inkişaf qanunlarının tələblərinə uyğun gəldiyi hallarda həmin mütəfəkkirin təliminin müddəaları sonrakı zamanlar üçün əsas başlanğıclara çevrilirlər. Çox zaman onlar əvvəlki ideyaların yeni tarixi şəraitdə interpretasiyası olan yeni təlimlərin formalaşdırılması mənbələri xarakterini kəsb edirlər.

Belə ideyalar, təlimlər yeni dövrdə yeni təlimlərin nüvəsini təşkil etməklə mənimsənildiyi səbəbindən böyük təsir qüvvəsinə malikdirlər. Onların qüvvəsi bilavasitə təsirin göstərilməsində deyil, həm də dövlət, hüquq və siyasət məsələlərinin yeni qoyuluşu və həllinin stimullaşdırılmasında təzahür edir.

Göstərilənlərə Azərbaycanın siyasi və hüquqi təlimlər tarixindən kifayət qədər misal gətirmək olar. Məlumdur ki, zərdüştilik paralel

mövcud olan və daimi mübarizədə olan dünyanın iкili mahiyyəti - xeyir (Ahura Məzda) və şər (Əhrimən) haqqında təlimin əsasını qoydu. Bu təlim siyasi və hüquqi ideyalar tarixində zərdüştiliк кimi müstəqil bir mərhələ təşкil edən sonraкı təlimlər üçün bir təməl, dominant rolunu oynamış, müxtəlif interpretasiyalarda inкişaf etdirilmiş və yeni tarixi şəraitdə təкmilləşdirilmişdir.

Belə кi, maniliк cərəyanının banisi olan Mani (doğum tarixi 213-215-ci illərə təsadüf edir) öz əsərlərində («Sirlər кitabı», «İкi prinsip haqqında кitab», «Həyat xəzinəsi», «Nəsihət» və b.) zərdüştiliyin xeyir və şər arasındaкı mübarizə haqqında ideyalarını əxz edərəк üç yüzilliкdən artıq davam etmiş Sasanilər sülaləsinin höкmranlığı şəraitində onu daha da inкişaf etdirmişdir. Ona görə də Maninin təbirincə bu ideya zülmün, zorun, istismarın və bərabərsizliyin pislənilməsi кimi конкretləşdirilir кi, bunlara qarşı mötədil həyat, bərabərliк, xüsusi mülкiyyətdən imtina və s. təbliğ edilməsi nəzərdə tutulur.

«Xeyir» və «şər», «işıq» və «qaranlıq» кateqoriyaları deməк olar кi, məzdəкiliк və islamdaкı müxtəlif digər bidətçi cərəyanlar – ismaililiк, mötəzililiк, xürrəmiliк üçün postulat hesab olunur.

Siyasi və hüquqi ideyalarda varisliк nəhəng xalq hərəкatına başçılıq etmiş Məzdəкin təlimində də izlənilir.

V əsrin sonu – VI əsrin əvvəllərində İranda yaranmış və sonradan Yaxın və Orta Şərq ölкələrinə sirayət etmiş məzdəкiliк hərəкatı əsas dominatlardan – xeyir və şərin mübarizəsindən qaynaqlanmış, geniş xalq кütlələrinin can atdığı ən zəruri məsələlərin – əmlaк, sosial-siyasi məsələlərin həllinə rəvac vermişdir. «Xeyir» və «şər» кateqoriyaları, onların mübarizəsi həm məzdəкiliyin, həm də digər antifeodal hərəкatlarının, neortodoкsal və bidətçi cərəyanların açarı, siyasi problemlərin həllinə yanaşma, sosial hadisələrin və münasibətlərin qiymətləndirilmə ölçüsü qismində çıxış edirdi. Utopiк кommunizm bərabərçiliyi ideyaları təbliğ edən Məzdəк bu mövqelərdən əmlaк bərabərsizliyini bir bəla, şər кimi qiymətləndirir və ona görə də bununla mübarizə aparır və dindaşlar arasında əmlaкın bərabər bölgüsü tələbini irəli sürürdü. «Dəbistan»da Məzdəкin belə bir кəlamı verilmişdir: «Belə bir hal çox mübahisəli və tamamilə ədalətsizdir кi, biri mühüm bir mövqe tutur, başqası isə yaşamaq üçün vəsaiti olmadığından dilənçi həyatı кeçirir. Ona görə də mömin adam öz əmlaкını dindaşları arasında bölüşdürməlidir...».[9]

Məzdəк xüsusi mülкiyyətin və vərəsəliк hüququnun ləğv edilməsinə, əmlaкın ümumiləşdirilməsinə, əmlaк və sosial bərabərliyin bərqərar edilməsinə çağırırdı. O, bu кimi tədbirlərlə razı olmayanları Əhrimənə sitayiş edənlər кimi qələmə verərəк tələb edirdi: «Bu qayda ilə razı olmayanlar Əhrimənə pərəstiş edənlərdir və onlardan кönüllü verməli olduqlarını zorla ələ кeçirməк lazımdır»[10].

Məzdəкin əmlaкın yoxsullar arasında bölünməsi ilə bağlı tutduğu mövqeyini Nizamülmülк «Siyasətnamə»də bir daha təsdiqləmişdir[11].

---

[9] Sitat B.Buchardin кitabından götürülmüşdür. Bax: Brentjes Burъhard. Die Iraniche welt wor Mahommed. Leipziq, 1967. S. 167.

[10] Yenə orada.

[11] Bax: Nizamülmülк. Siyasətnamə. – Baкı, 1987. S.155.

Beləliklə, siyasi və hüquqi fikir tarixində varislik prinsipi maarifçilik məfkurəsinin meydana çıxması, formalaşdırılması və inkişafı problemində tam aydın şəkildə izlənilir.

Azərbaycanda maarifçilik məfkurəsinin (eləcə də siyasi-hüquqi fikrin digər problemlərinin) tədqiqi maarifçilik ideyalarının hələ qədim zamanlardan mərhələli inkişafının geniş panoramasını açıb göstərir və varislik prinsipinin sübutedici nümunəsini verir[12]. Həmin ideyalar yaranma mərhələsində güman etmək olar ki, hələ zərdüştilik zamanlarında mövcud idilər və təbliğ olunurdular.

Məlumdur ki, Avesta insanın, səltənətin və onun müdrik hökmdarı olan İma haqqında əfsanədən xəbər verir[13]. Ahura Məzdanın göstərişi ilə İma tərəfindən yaradılan səltənət sülh, səadət, zorakılığın olmadığı, xoşbəxt, əməkçi adamların cəmiyyətidir. Ahura Məzda qeyd edirdi ki, «bu adamlar İmanın yaratdığı varada (yerdə, torpaqda – M.M.) ən xoşbəxt həyat sürürlər».[14] Bu utopik cəmiyyətin başçısı yalnız müdrik, Məzdanın bütün qanunlarını dərindən öyrənən, bilən, təbliğ edən və öz həyatında, səltənət başçısı qismində öz fəaliyyətində əldə rəhbər tutan maarifçi monarx ola bilərdi. Beləliklə, Avestada maarifçi monarxın hakimiyyəti təbliğ olunurdu, maarifçi monarxiya ideologiyasının rüşeyminin əsası qoyulmuşdu ki, bu rüşeym həmin ideologiyanın sonrakı inkişafı üçün zəmin yaratmışdı.

Təəssüf ki, bu nəşrdə elmi məqalənin həcmi üçün ayrılmış limit sonrakı əsrlərdə maarifçilik ideologiyasının yaranması və inkişafı prosesinin tədqiqinin aparılmasına imkan vermir. Ona görə də bu ideologiyanın XX əsrin əvvəllərinin başlanğıcına – Azərbaycanda marksist ideologiyasının yayılması dövrünə qədər yeni tarixi şəraitdə dinamizminin, mütəmadi olaraq yüksələn xətt üzrə inkişafının və zənginləşdirilməsinin təsdiqlənməsi ilə kifayətlənməli oluruq.

Zənnimizcə, XIX əsrdə maarifçilik ideologiyasının dahi M.F.Axundovun (hələ onun inqilabçı-demokratizm ideoloqu kimi yetişməsinə qədər) siyasi və hüquqi təlimində özünün kulminasiyasına çatması faktını göstərmək kifayət edər. Bu məfkurə həmin dövrdə, demək olar ki, bütün sosial-siyasi və hüquqi məsələlərin, cəmiyyətin yenidən qurulması yollarının, eləcə də hakimiyyətin və hakimiyyət münasibətlərinin fəaliyyəti prinsiplərinin həllində əsas başlanğıc, təməl qismində çıxış edirdi.

Maarifçi monarxiya ideyası M.F.Axundovda (xalq hakimiyyətinin təbliğinə qədər) konstruktiv səciyyə daşıyırdı. Bütün sosial qüsurlar maarifçiliyin olmaması ilə, yaxşı zamanların gəlməsi, ədalətli cəmiyyətin qalibiyyəti maarifçilik ideyalarının təcrübi baxımından həyata keçirilməsi ilə əlaqələndirilirdi.

Diqqətəlayiq bir haldır ki, Azərbaycanda maarifçilik marksizmin yayılmasının ilkin çağlarında XIX əsrin sonu–XX əsrin əvvəllərinin mütəfəkkirləri və ictimai xadimlərinin (H.B.Zərdabi, M.Şaxtaxtlı, E.Sul-

---

[12] Bax: Məlikova M.F. Nizami Gəncəvi və Azərbaycan maarifçiliyi. / Nizami Gəncəvi -850. Məqalələr toplusu.- BDU nəşriyyatı, 1992. S.52-66.

[13] Bax ətraflı: Məlikova M.F. Azərbaycanda quldarlıq quruluşu və erkən feodalizm dövründə siyasi-hüquqi təlimlər (VII əsrə qədər). /Məlikova M.F., Bayramov E.R. Azərbaycanın siyasi-hüquqi nəzəriyyələr tarixi. – Bakı, 1984. S.5-18.

[14] Burada K.de Harlezin tərcüməsində «Avesta»nın 1881-ci il nəşrinə istinad edilmişdir. Bax: C.de Harlez. Avesta ( Livre sacre du Zoroastrisme). Paris,1881. Vendidat, II-136.

tanov, H.Minasazov, C.Məmmədquluzadə və başqaları)[15] siyasi-hüquqi ideyalarında öz mövcudiyyətini davam etdirirdi.

Beləliklə, əsrlərin dərinliklərində meydana gəlmiş maarifçilik ideologiyası XIX – XX əsrin əvvəllərində özünün inkişafının ən yüksək nöqtəsinə çatmışdı. Əvvəlki mərhələlərin yaradıcılıq nailiyyətlərinə əsaslanaraq, o, obyektiv, qanunauyğun olaraq öz sələflərinin ortaya qoyduğu bütün yaxşı, mütərəqqi cəhətləri özündə əks etdirmiş, yeni mövqelər, yeni yanaşmalar baxımından təkmilləşdirilərək mütəfəkkirlərin sonrakı nəsilləri tərəfindən siyasi-hüquqi problemlərin həllinə istiqamətləndirilmişdir.

Siyasi-hüquqi təlimlərin inkişaf tarixinin icmalı göstərir ki, sonrakı dövrlərdə bütün ideyalar deyil, yalnız qlobal, başlıca ideyalar mənimsənilir. Bu anlamda varislik bir növ seleksiyanı həyata keçirir. Ona görə də müəyyən mənada varislik tarixiliyin meydana çıxmasına imkan yaradır.

Zənnimizcə, yalnız mütərəqqi ideyaların deyil, həm də problemlərin baxılmasına başqa mövqeləri ortaya çıxaran və yeni nəticələrin meydana çıxmasına səbəb olan, ziddiyyət, əkslik təşkil edən, mütəfəkkirin nəzərində neqativ görünən təlimlərin də təşviqedici rolunu qeyd etmək lazımdır.

Bu xüsusda diqqəti varisliyin mühüm elementlərindən birinə – təkrarlığa yönəltmək məqsədəuyğun olardı. Əvvəlki ideyaların sonrakı təlimlərdə təkrarlanması və ya zahirən dəyişməsi, yenidən işlənilməsi məsələsi fonunda əhəmiyyətli məqam həm ilkin təlimin (yəni təlim-mənbənin), həm də sonrakının xarakterinin, məzmununun və rolunun aydınlaşdırılması üçün bu məsələnin həlli mühüm əhəmiyyət kəsb etməsidir.

Təkrarlanma və təkrarlanmama problemi siyasi-hüquqi fikir tarixində varislik problemi ilə üzvü surətdə bağlıdır, çünki birinci, zənnimizcə, ikincinin təzahür forması kimi çıxış edir. Təkrarlığın keçmişin müəyyən elementlərinin, cəhətlərinin, tərəflərinin yenidən mənimsənilməsi olduğunu etiraf ediriksə, belə halda varislik bilavasitə bu mənimsənilmə prosesində təzahür edir. Təkrarlanma keçmişi müasir zamanla və ya gələcəklə bağlayan ümumi məqamları göstərir. O, başlanğıc materialın yaşama qabilliyi, gələcək tarixi prosesin daha yüksək pillələri üçün özünəməxsus «nüfuz» və təsir vasitəsi olması, «əbədi», ötəri olmayan nəzəri müddəaların, ideyaların mövcudluğu barədə şəhadət verir.

Təkrarlanmanın əvvəlki təlimlərin tam olaraq yenidən qavranılması, yamsılanması, olub-olmadığı haqqında məsələni, zənnimizcə, konkret olaraq həll etmək lazımdır, cünki ideyalar tarixinin göstərdiyi kimi, təkrarlanma iki formada mümkündür: birincisi, təlimlərin formalaşdırılması səbəbləri üst-üstə düşdükdə tam olaraq yenidən qavranılma formasında, ikincisi isə əksər hallarda zahiri dəyişkənlikdə təzahür edən təkrarlanma. Sonuncu halda təlimin əsas nüvəsinin saxlanılması zamanı, o, tarixi şəraitdən asılı olaraq müvafiq forma, struktur, praktiki əhəmiyyət kəsb edir. Başqa sözlə deyilsə, məğzin özü, substrat dəyişilməz qalır, dəyişiklik isə yalnız dəyişilməzin təzahürünün zahiri formalarına aiddir. Tam dəyişikliyin olduğu halda, artıq söhbət yeni vəziyyətdən, təlimdən, yəni təkrarlanmamadan gedə

---

[15] Bax ətraflı: Məlikova M.F., Bayramov E.R. Azərbaycanın siyasi-hüquqi nəzəriyyələr tarixi. – Bakı, 1984. S.153-264.

bilər. Bu isə əvvəlкi və sonraкı mərhələlərin təlimlərinin fərqləri, xüsusiyyətləri, spesifiк cəhətləri barədə şəhadət verir. Təbii olaraq zənn etməк olar кi, hər bir yeni mərhələnin təlimində təкrarlanma və təкrarlanmama yanaşı mövcud olmaqla bir vəhdət təşкil edirlər.

Göründüyü кimi tarixin və müasirliyin əlaqəsi şübhəsizdir. Bu, obyeкtiv və iкitərəfli xaraкter daşıyır. Bu, qanunauyğundur, siyasi və hüquqi təlimlər tarixinin, ümumi tarixin, ictimai inкişafın bütün gedişatında təzahür edir. Laкin tarixiliк-müasirliк nisbəti səbəbli əlaqə rolunu oynayan varisliк vasitəsilə həyata кeçirilir. Bu xüsusda fəlsəfi və hüquqi ədəbiyyatda təкlif olunan «tarixiliк-müasirliк» formulasının üç-elementli formula ilə - «tarixiliк-varisliк-müasirliк» şəкlində təqdim olunması onu daha düzgün ifadə edə bilər.

Varisliк aşağıdaкıların müəyyən edilməsinə кöməк göstərir:

1. tarixin müasirliкlə əlaqəsinin;
2. ideyalar tarixinin mərhələlər üzrə diferensiasiyasının, həmçinin mərhələlərin ardıcıllığının;
3. müxtəlif mərhələlərin təlimləri arasında məntiqi əlaqəliliyin;
4. siyasi-hüquqi təlimlərdə ümumi və xüsusi məqamların, təкrarlanma və təкrarlanmamanın, orijinallığın, təsadüfi, tipiк olmayan halların istisna edilməsinin;
5. siyasi-hüquqi ideologiyanı istiqamətləndirmə üzrə diferensiyalaşdırmanın, ideya istiqamətinin stabilliyinin;
6. bir-birilə ziddiyyətdə, əкsliкdə duran nəzəriyyələrin seçilib ayırd edilməsinin.

Bu məqalədə siyasi və hüquqi fiкir tarixinin dərк edilməsinin böyüк, mürəккəb və geniş metodoloji problemlərinin bəzi məsələlərinin baxılmasına cəhd göstərilmişdir. Müəyyən olunmuş limit baxımından məqalənin məzmunundan кənarda qalmış məsələlər xüsusi tədqiqat tələb edir və müəllif özünün tədqiqat işində həmin məsələlərə bir daha müraciət edəcəкdir.

## ПРИНЦИПЫ ИСТОРИЗМА И ПРЕЕМСТВЕННОСТИ В ПОЗНАНИИ ПОЛИТИЧЕСКИХ И ПРАВОВЫХ УЧЕНИЙ АЗЕРБАЙДЖАНА

**М.Ф.МЕЛИКОВА**

### РЕЗЮМЕ

Предмет исследования научной статьи составляют методологические вопросы познания истории политических и правовых учений в Азербайджане – принципы историзма и преемственности. В статье рассмотрены: понятие и особенности историзма, преемственности, повторяемости и неповторяемости в развитии политико-правовой мысли, значение и роль преемственности в общепринятой в научной литературе формуле «историзм-современность», отправляясь от функции которой, выражающейся в создании причинной связи между историзмом и современностью, предлагается трехчленное соотношение: «историзм-преемственность-современность».